# Fərqli düşüncə

Xüsusi daycest buraxılışı

Xəbər və fikir jurnalı • №30 (70) • 26.12.2011



AzadliqRadiosu.az®

**Evlərin söküntüsü «NZS»ə çatıb** səh.4

**Sumqayıtda prezidentin ad gününə 50 metrlik tort bişirildi** səh.6

**Ирак всерьез встревожил Вашингтон** səh.7

**Rüşvətdən şikayət etdi, işdən qovuldu** səh.9

**Milyonçu Tağıyevin qızı niyə küçələrdə qalmışdı?** səh.12

Ramiz Rövşən: **«Havel göstərdi ki, balaca ölkənin böyük rəhbəri olmaq olar»** səh.13

**Namus üstündə öldürülən qadınların sayı artır** səh.14


## Moskvada müxalifətin çoxminlik mitinqi



Moskvada akademik Saxarov prospektində «Ədalətli seçkilər uğrunda» şüarı ilə aksiya keçirilib. Aksiyada 100 minə qədər adamın iştirak etdiyi deyilir. Dekabrın 4-də keçən parlament seçkilərinin saxtalaşdırıldığını deyən müxalifət hakimiyyət qarşısında yeni tələblər irəli sürüb.

səh.2

## "Bu il Azərbaycanda neft sahəsində 22 ölüm hadisəsi olub"



*Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı bildirib ki, təkcə bu ilin 10 ayı ərzində 22 ölüm faktı baş verib: "Ötən il 10 ölüm hadisəsi olmuşdu. 2009-cu ildə isə 6 ölüm hadisəsi. Hələ bu biz biləndir. İş şəraiti yox, xüsusi geyimlər yox. Bu qiymətsizliyi fəhlə görür axı".*

стр.6

## Xarici seriallar dayandırılır...



Gələn ilin mayından Azərbaycanda xarici teleseriallarын yayımı dayandırılacaq. Bununla bağlı qərarı Milli Televiziya və Radio Şurası dekabrın 22-dəki toplantısında verib. Media Hüquqları İnstitutunun rəhbəri Rəşid Hacılı deyir ki, Şuranın bu cür qərar verməyə səlahiyyəti yoxdur. Bu, senzuradır".

səh.3

### Bizim Santa



# Moskvada müxalifətin çoxminlik mitinqi keçirilib



**Moskvada akademik Saxarov prospektində «Ədalətli seçkilər uğrunda» şüarı ilə aksiya keçirilib. Aksiya Moskva meriyası ilə razılaşdırılmışdı. Xatırladaq ki, dekabrın 4-də Rusiya Dövlət Dumasına seçkilər olub və seçkilərdə hakim Vahid Rusiya Partiyası qələbə qazanıb. Seçkilərdə saxtakarlıqların baş verdiyini deyən müxalifət partiyaları dekabrın 10-da da Moskvada on minlərlə insanın iştirakı ilə aksiya keçirmişdilər.**

Keçmiş maliyyə naziri Aleksey Kudrin də camaatın arasındadır. Mitinqdə müxalifət liderləri Vladimir Rıjkov, Boris Nemtsov , Harri Kasparov, yazıçı Boris Akunin, yazıçı və publisist Dmitri Bıkov və digərləri çıxış ediblər. Boris Nemtsov çıxış edərkən deyib: "Oğru Kremldə oturmamalıdır. Putinin qərargah rəisi Qavoruxin bununla yüz faiz razıdır.

Putinsiz yeni iliniz mübarək, Putinsiz yeni iliniz mübarək, Rusiya azad olacaq, Rusiya azad olacaq!".

Müxalifətdə olan siyasi xadim İlya Yaşin isə deyib ki, biz qan, inqilab, vətəndaş müharibəsi istəmirik. Bizim istədiyimiz yalnız ədalətli seçkidir. Həmçinin Sibir, Vladivostok və Uzaq Şərq də daxil olmaqla Rusiyanın bir çox regionlarında ədalətli seçki tələbilə mitinqlər keçirilib.

Müxalifətdə olan siyasətçi Vladimir Rıjkov sonda mitinqin qətnaməsini oxuyub:

*1. Bütün siyasi məhbuslar təcili azad edilsin.*

*2. Seçkinin nəticələri ləğv olunsun.*

*3. MSK sədri Çurov istefa versin, pozuntular araşdırılsın və günahkarlar cəzalandırılsın.*

*4. Müxalifət partiyaları qeydiyyata alınsın, 2012-ci ilin fevralından gec olmayaraq siyasi partiyalar haqqında yeni qanun qəbul edilsin.*

*5. Yeni azad və ədalətli Duma seçkisi keçirlsin.*

*6. Seçicilərin Moskva Birliyi yaradılsın.*

*7. Vətəndaşlara çağırış: 2012-ci il martın 4-də keçiriləcək prezident seçkisində Vladimir Putinə bir dənə də səs verməyin.*




Bu tələblərdən 5-i bundan əvvəl Bolotnaya meydanında qəbul edilmiş və yerinə yetirilməyən tələblərdir. Müxalifət liderləri bildiriblər ki, əgər tələbləri yerinə yetirilməsə yenidən toplaşacaqlar. Mitinqin sonunda "Putinsiz Rusiya" şüarları səsləndirilib.

Bəzi müşahidəçilərə görə, mitinqə 100 minə qədər adam gəlib.

# Medvedev siyasi islahat təklif edir



Dmitri Medvedev

**Rusiyada seçkilərdən sonrakı kütləvi etiraz aksiyaları fonunda prezident Dmitri Medvedev ölkənin siyasi sistemində bir sıra islahatlar təklif edib. Bu islahatlara o cümlədən qubernatorların birbaşa seçkisi daxildir. Ölkənin vəziyyəti haqda ənənəvi illik hesabatında Medvedev deyib: "Mən bizim siyasi sistemin kompleks şəkildə islahatını təklif edirəm. Mən dəyişiklik haqda danışanlara qulaq asıram və onları başa düşürəm. Biz bütün aktiv vətəndaşlara siyasi həyatda iştirak etmək şansını verməliyik".**

Yerli və xarici müşahidəçilər Medvedevin dediklərini seçkilərdən sonra ictimai narazılığı azaltmaq və adamları sakitləşdirmək cəhdi kimi qiymətləndirirlər. Rusiyanın siyasi elitası 4 dekabr Duma seçkilərindən sonra müdafiədə oynamağa məcbur olub. Seçkilərdə hakim Vahid Rusiya Partiyası Dumadakı əvvəlki yerlərinin 25 faizini itirdi. Ancaq çoxluğu saxlaya bildi.

Dekabrın 10-da müxalifətin etiraz aksiyasına azı 40 min adam gəlmişdi. 1990-cı illərin əvvəllərindən Rusiyada etiraza bu qədər adam qalxmamışdı. Rusiyada qubernatorların birbaşa seçilməsini Vladimir Putin 2004-cü ildə ləğv etmişdi. O vaxtdan qubernatoru Kreml təyin edir.

Medvedev başqa islahatlar da təklif edib. O, təklif edir ki, prezident seçkilərinə qatılmaq istəyəndən tələb olunan imzaların sayı azaldılsın, siyasi partiyaların qeydiyyatı qaydaları asanlaşdırılsın.

Prezident həmçinin təklif edir ki, Dumadakı yerlərin yarısı birmandatlı dairələrdən seçilsin. Hazırda Dumanın hamısı partiya siyahıları ilə seçilir.

"Rusiyaya xaos yox, demokratiya lazımdır"- deyən Medvedev bildirib ki, "insanların öz fikrini bildirmək haqqı təmin olunur. Ancaq Rusiya vətəndaşları ilə manipulyasiya etmək, onları çaşdırmaq, yanlış yola yönəltmək yolverilməzdir".

*Bundan əvvəl baş nazir Putin deyirdi ki, nümayişçilər xaricdən yönəldilir, indi də Medvedev xaricdən Rusiyanın işlərinə qarışmaq istəyənlərə xəbərdarlıq edib:* "Biz provokatorlara və ekstremistlərə imkan verməyəcəyik ki, cəmiyyətimizi öz işlərinə qatsınlar. Bizim daxili işlərimizə xarici müdaxiləyə imkan verməyəcəyik".

***Elxan Nəsibli***




**Dəyərli oxucular!**
AzadlıqRadiosunun korrupsiya halları ilə bağlı maraqlı araşdırmalarını, xəbər və reportajlarını **AzadliqRadiosu.az** saytında **"Korrupsiometr"** bölümündə oxuyun. Səs yazılarını dinləyin, videolara baxın.

# Xarici seriallar dayandırılır...

## Rəşid Hacılı: "Bu, senzuradır"

**Gələn ilin mayından Azərbaycanda xarici teleseriallların yayımı dayandırılacaq. Bununla bağlı qərarı Milli Televiziya və Radio Şurası dekabrın 22-dəki toplantısında verib. Şuranın qərarında deyilir ki, bu addım Azərbaycan xalqının mədəni irsini təbliğ edən və mənəvi-əxlaqi dəyərlərini aşılayan yerli teleseriallların çəkilməsi üçün atılır: «Məqsəd milli şüurun formalaşmasında, gənc nəslin inkişafında əhəmiyyətini nəzərə alaraq yerli telefilmlərin və serialların çəkilişini stimullaşdırmaqdır».**

*Sədrin köməkçisi Toğrul Məmmədovun AzadlıqRadiosuna dedikləri:* «Məqsəd də milli film və serialların çəkilməsini stimullaşdırmaqdır. Ucuz başa gəlsin deyə, efiri doldurmaq üçün televiziyalar xarici teleseriallara üstünlük verirdi. Bu da milli, mənəvi, əxlaqi dəyərlərə uyğun olmayan seriallar idi. Şuranın tam hüququ var. Əsasnamənin 9.1-ci maddəsində də deyilir ki, Şura yayımçılarla bağlı məcburi qərarlar verə bilər. Bu da məcburi qərardır».

Toğrul Məmmədov deyir ki, bu qərar uzunmüddətli müzakirələrdən sonra qəbul edilib. Bu ilin sentyabrında prezident yerli serialların çəkilməsi üçün 5 milyon manat ayırıb və bu məbləğ bir neçə televiziya arasında bölüşdürülüb. Hər birinə 300 min manat ayrılıb.

**«BU, SENZURADIR»**

*Media Hüquqları İnstitutunun rəhbəri Rəşid Hacılı Şuranın belə qərar verəcəyinə inanmır. O deyir ki, əvvəla, Milli Televiziya və Radio Şurasının bu cür qərar verməyə səlahiyyəti yoxdur. Bundan başqa, ekspert bu addımı senzura kimi dəyərləndirir:* «Xarici serialların dayandırılması ön senzura qoymaqdır. Azərbaycanda yayımçıları qeyri-qanuni olaraq proqram yaymaq imkanlarından məhrum etməkdir. Özü də bunun üçün gətirilmiş əsas, yəni «gənc nəslin tərbiyəsi» qeyri-hüquqi ifadədir, yayğın ifadədir. Və əsaslandırma kimi istifadə edilə bilməz. Həm də bu məsələ Şuranın səlahiyyətində deyil. Bununla Milli Televiziya və Radio Şurası qanunla verilmiş səlahiyyətini tamamən aşır. Xarici serialları qadağan et ki, gənc nəslə pis təsir edir? Elə serial ola bilər ki, gənc nəslə müsbət təsir edir. Bunu öncədən MTRŞ qiymətləndirə və ya görə bilməz ki... Düzü, elə primitiv qərardır ki... Açığı mən təəssüf edirəm ki, Azərbaycanda teleradio məkanı bu şəkildə idarə olunur».



Rəşid Hacılı

Rəşid Hacılı deyir ki, Şura yalnız konkret serialın məzmunu ilə bağlı qərar qəbul edə bilər.



Tahir Məmmədov

**TELEVİZİYALAR RƏQABƏTDƏN QAÇIRLAR?**

*İctimai Televiziyanın ictimaiyyətlə əlaqələr və monitorinq şöbəsinin müdiri Tahir Məmmədov bu qərarı normal qarşılayır. O deyir ki, İctimai Televiziyada yayımlanan yerli seriallar çoxalmağa başlayıb:* «İTV-də yayımlanan «Qaranlıqlar çiçəyi», «Döngələr» bəyənilir, populyarlıq qazanıb. Təcrübə, kadrlar var. Düşünürük ki, belə qərarın verilməsi böyük çətinlik yaratmayacaq. Və televiziyaları produktiv olmağa sövq edən qərar ola bilər».

"ANS" Şirkətlər Qrupu prezidentinin müşaviri Mais Məmmədli isə bu qərarı ikiəlli dəstəkləyir.

***Şahnaz Bəylərqızı***




# «Azadlıq»ın yubiley tədbiri yarımçıq qaldı

*«Azadlıq» qəzetinin 22 yaşı tamam olur. Bu münasibətlə dekabrın 25-də qəzet rəhbərliyi təxminən 150 nəfəri - hüquq müdafiəçilərini, partiya sədrlərini, jurnalistləri «Qızıltac» restoranına dəvət edib. Amma tədbir başladıqdan təxminən 15 dəqiqə sonra işıqlar söndürülüb. Ofisiantlar bayıra çıxarılıb və restoran rəhbərliyi xahiş edib ki, qonaqlar zalı tərk etsinlər.*

Restoranı icarəyə götürdüyünü bildirən şəxs qonaqlara deyib: «Balalarıma burda çörək qazanıram. Onların çörəyi ilə oynamayın. Mənə yuxarıdan zəng vurublar, yoxsa məni atacaqlar bayıra. Çıxın burdan».

Həmin şəxs AzadlıqRadiosuna adını deməkdən imtina edib və bildirib ki, restorana elektrik verilişinin dayandırılması haqda qərar ona aid deyil. Amma zal qaranlıq və soyuq olsa da, qonaqlar zalı tərk etməyiblər.

*Sülh və Demokratiya İnstitutunun direktoru Leyla Yunus şam yandırmağı təklif edib. Xalq Cəbhəsi Partiyasının sədri Əli Kərimli, Müsavat Partiyasının başqanı İsa Qəmbər, sabiq deputat Pənah Hüseyn, yazar Mehriban Vəzir çıxış ediblər. Pənah Hüseyn deyib:* «Azərbaycan hakimiyyətinin milyardları, silah-sursatı olsa da, demokratik qüvvələrdən qorxur».

*Amma tədbir yarımçıq başa çatıb. «Azadlıq»ın redaktoru Qənimət Zahid çıxış edərək deyib:* «Biz istəmirik kiminsə çörəyinə bais olaq. Biz istəyirik Azərbaycanda elə mühit yaradaq ki, sahibkarlar məmurdan və ya başqa birindən asılı olmasın. Amma bu gün bizi restoranın rəhbərliyi ilə üz-üzə qoydular...».

Qənimət Zahidin çıxışından sonra qonaqlar dağılışmağa başlayıblar.

# Evlərin söküntüsü «NZS»ə çatıb

**«EVİ ÖZÜN SÖK, 100 MANAT DA CƏRİMƏ ÖDƏ»**

«Azneftyağ» Neft Emalı Zavodunun iddiasına baxan Xətai Rayon Məhkəməsi dekabrın 16-da qətnamə çıxarıb ki, Məhərrəm Mirzəyev və onun həyat yoldaşı Xətai rayonu, İlham Məmmədov küçəsi 26/3 ünvandakı qanunsuz tikilidən çıxarılsın. Ev onların hesabına sökülsün və onlardan dövlət nəfinə də 100 manat pul tutulsun. Xətai rayonunda «NZS qəsəbəsi» kimi tanınan ərazidə hələ Sovetlər dövründən məskunlaşan 150-yə yaxın ailənin hamısına belə bir xəbərdarlıq edilib. Sakinlərə öz evlərini tərk etməklə bağlı 1 ay vaxt verilib.

İddiaçı «Azneftyağ» Neft Emalı Zavodu hesab edir ki, müəssisəyə məxsus boru kəmərinin mühafizə zolağında yerləşən ərazi qanunsuz olaraq zəbt edilib. Zavoda görə, həmin ərazidə evlərin olması neft kəmərlərinə qulluq edilməsinə maneə yaratmaqla yanaşı, həm də bu ərazidə yaşamaq insanların həyatı üçün təhlükədir.

**«BURA MƏHKƏMƏ YOLU İLƏ QEYDİYYATA DÜŞMÜŞÜK»**

*Hələ Sovet dövründən bu ərazidə məskunlaşanlar isə yaşadıqları yerin qanunsuz zəbt edilməsi ilə bağlı fikirləri rədd edirlər. Sakin Məmməd Həsənov:*

- Baxın, bu, Xətai Rayon Məhkəməsinin qətnaməsidir. Bu qətnamə yolu ilə məni 2000-ci ildə bura qeydiyyata alıblar. Bax, bu da Mənzil İstismar Sahəsinin verdiyi texniki pasport, rəsmi dövlət möhürü ilə. Şəxsiyyət vəsiqəmdə də Xətai rayonu, İlham Məmmədov küçəsi 26-da qeydiyyatdayam. Bunlar hamısı rəsmi sənədlərdir. İndi Xətai məhkəməsi qərar çıxarır ki, evlər sökülsün.

**«AĞ ŞƏHƏR» LAYİHƏSİNİN ARXASINDAKI MİLYARDLAR**

*Sakinlər bu məsələnin son dövrlər üzə çıxmasını bəzi məmurların biznes maraqları ilə izah edirlər. Onların dediyinə görə, hər şey «Ağ şəhər» layihəsinin elan olunmasından sonra başladığından onlar bir sıra məsələlərdən şübhələnməyə başlayıblar:* «Ağ şəhər» layihəsinin sərhəddindəyik. Bu ərazi boşaldılmalıdır. Burda milyardlardan söhbət gedir. Bu gün bizim torpaqları pul ödənilmədən əlimizdən alan adam onu həmin layihəyə satıb, bir qoyub beş götürəcək. Biz Xətai rayonundan deputatlarımıza - Səməd Seyidova, İqbal Ağazadəyə müraciət edirik, zəhmət çəksinlər, gəlsinlər, bizimlə maraqlansınlar».



«NZS» sakini

**«BİZƏ PUL VƏ YA EV VERSİNLƏR, KÖÇƏK»**

*Sakinlər deyir ərazidən köçməyin əleyhinə deyillər, sadəcə, istəyirlər ki, onları qışın soyuğunda çölə atılmasınlar:* «Biz demirik çıxmırıq. Biz çıxırıq, amma bizə ya ev versinlər, ya da pul. Əgər buranı strateji yer kimi qiymətləndirib sökmək istəyirlərsə buna etirazımız yoxdur, amma əhalini yerlə təmin etsinlər. Biz məmurlara xəbərdarlıq edirik. Bu camaat gecələr də yatmır. Bura çalxalanan vulkana bənzəyir. Bu nə vaxt partlayacaq, onu məmurlar fikirləşsinlər, camaatın hissiyyatı ilə oynamasınlar».

*Qəsəbə sakinləri baş verənlərdən ölkə başçısının xəbərsiz olduğunu düşünürlər:* «Prezidentimizdən artıq dərəcədə xahiş edirik, bizə bir əncam çəksin. Bəlkə heç prezidentin bu işlərdən xəbəri yoxdur. Biz ona görə sakit oturmuşuq. Bizim ondan başqa dayağımız yoxdur».



Qəsəbə sakinləri

**SAKİNLƏRİN MƏƏTTƏL QALDIĞI 2 MƏSƏLƏ**

Sakinlər deyirlər ki, bu işdə onlar iki məsələyə məəttəl qalıblar. Birincisi, yaşadıqları ərazi bütün rəsmi sənədlərdə Dövlət Dəmir Yolu İdarəsinin ərazisi kimi göstərildiyi halda, Dövlət Neft Şirkətinin onlara qarşı iddia qaldırmasını başa düşə bilmirlər. Sakinlər deyirlər ki, bir neçə gün ərzində aidiyyəti rəsmi qurumlar onların narahatlığına reaksiya verməsə, Xətai Rayon İcra Hakimiyyəti qarşısında aksiyalara başlayacaqlar.

**150 AİLƏ 1 ÜNVANDA QEYDİYYATDADIR**

Köçürülməyə etiraz edənlərin dediklərindən o da aydın oldu ki, 150-dən çox ailənin hamısı bir ünvana, İlham Məmmədov 26-ya qeydiyyata salınıb. Sakinlərin dediyinə görə, bəlkə də bu, yuxarılarda ərazidə yalnız bir ailənin yaşadığı təəssüratı yaradıb deyə belə qərar qəbul ediblər.

**«HƏR ŞEY MƏHKƏMƏ QƏTNAMƏSİNDƏ YAZILIB»**

«Azneftyağ» Neft Emalı Zavodunun hüquq şöbəsindən isə bildiriblər ki, hər şey məhkəmə qətnaməsində aydın göstərildiyindən onlar məsələyə əlavə şərh vermək istəmirlər. Dövlət Neft Şirkətindən isə sakinlərin narazılığına hər hansı münasibət öyrənmək mümkün olmadı.

**«BU, ÖLKƏ QANUNLARINA DA, BEYNƏLXALQ ÖHDƏLİKLƏRƏ DƏ ZİDDİR»**

Hüquqşünas Fuad Ağayev «Azneftyağ» Neft Emalı Zavodunun sakinlərə qarşı irəli sürdüyü iddianı əsassız sayır. Deyir əslində ölkə konstitusiyasına və Azərbaycanın götürdüyü beynəlxalq öhdəliklərə görə, məhkəmə belə bir iddianı qəbul etməməli idi.

Hüquqşünasa görə, rəsmiləşdirilməsindən və qeydiyyata alınmasından asılı olmayaraq əgər kimsə hakimiyyət orqanlarının açıq və sükut razılığı ilə uzun müddət bir ərazidə yaşayıbsa, həmin şəxsin artıq mülkiyyət hüququ yaranır. Fuad Ağayevə görə, elə bu səbəbdən də «NZS» sakinləri rayon məhkəməsinin qərarından apelyasiya şikayəti verməlidirlər.

***Maarif Çingizoğlu***

# «Azərbaycan xilas olacaq»



Əli Kərimli

**AzadlıqRadiosunun «İşdən sonra» proqramına qonaq olan AXCP sədri Əli Kərimli belə deyib. Onun fikrincə, təhlükəli olmasına baxmayaraq, hələ ki, Azərbaycanda müxalifətçilik etmək mümkündür: «Biz özümüzü bu hökumətə müxalif olduğumuzu, bu sistemi kökündən dəyişmək istədiyimizi açıq bəyan edirik. Hələ ki, bu, Azərbaycanda mümkündür. Eyni zamanda da asan deyil, təhlükəlidir. Bunu edəndə, əlbəttə ki, adama tolerant yanaşmırlar. Çox böyük təqiblər, məhrumiyyətlər var bunun arxasında...».**

**MÜXALİFƏTİN ÇEŞİDLƏRİ...**

*Partiya sədri özünü müxalifət adlandıranların bəzilərini də tənqid atəşinə tutub:* «Azərbaycanda nəinki müxalifət var, hətta onları çeşidləyiblər. Psevdomüxalifət, konstruktiv müxalifət, radikal müxalifət, ənənəvi müxalifət deyirlər. Amma mən bilirəm ki, biz elə real müxalifətik və olanı budur. Müxalifət belə olmalıdır. Sistemin başında duran adamın adını çəkməyə cəsarət etməyən biri özünə müxalifət deyirsə, bu, necə müxalifətdir? Hakimiyyətə gəlməyə çalışmayan biri özünə müxalifət deyirsə, bu, necə müxalifətçilik oldu? Azərbaycanda real müxalifət o qüvvələrdir ki, İlham Əliyevin rəhbərliyi ilə qurulmuş bu korrupsioner, zorakı sistemi dəyişməyi qarşılarına məqsəd qoyub...».

*Əli Kərimli deyib ki, 20 illik fəaliyyətə baxmayaraq, Azərbaycan hələ də xilas olmasa da, bu, onları ruhdan salmır:* «Bu o demək deyil ki, Azərbaycan xilas olmayacaq. Xilas olan xalqların hər biri nə qədər müddətdən keçiblər...».

**«BU ADAMLAR HACI İLQARDAN İNDİMİ XƏBƏR TUTURLAR?»**

*Partiya sədri Elnur Astanbəylinin Molla Pənah Hüseyn yazısına və son vaxtlar İctimai Palata ətrafında yaranmış söz-söhbətlərə də münasibət bildirib:* «İctimai Palatadakılar milli-demokratik qüvvələrdir. Bizim inanclı insanlara normal yanaşmamızdan normal bir şey yoxdur. Burada nə qəbahət axtarmaq lazımdır ki?! Mən başa düşə bilmirəm. Hacı İlqar 2003-cü ildə seçki məhbusu olanda yaxşı idi, indi bizim aramızda olması İctimai Palataya qarşı nə böyük kompromat oldu... Guya İctimai Palata Rafiq Tağının xatirəsini yad etməyib. Yalandır axı. İclasa mən sədrlik etmişəm. Hamımız ayağa qalxıb Rafiq Tağının xatirəsini bir dəqiqəlik sükutla yad etmişik. Deyirlər ki, yalan ayaq tutub yerimir, amma bəzən bu yalanların yürüdüyü də olur. Açığı, bu axırıncı polemikalar süni xarakter daşıyır. Şişirdilir. Belə bir problem yoxdur...».

Sonda Əli Kərimli onu deyib ki, Rusiyada baş verən hadisələr Azərbaycanda çox şeyləri ciddi şəkildə dəyişdirəcək.

**Verilişi tam olaraq AzadlıqRadiosu.az saytında dinləyə bilərsiniz.**

***Xədicə İsmayılova, Kamran Mahmudov***

# Əfv siyahısında 100 nəfərin adı var

*Əfv Məsələləri Komissiyasının hazırladığı siyahıda 100 nəfərin adı var. Bunu "Mediaforum" saytına Əfv Komissiyasının üzvü, deputat Elmira Axundova deyib. Onun sözlərinə görə, ümumilikdə 300-dən çox müraciətə baxılıb:* "Siyahı hazırlamışıq və orada 100 məhbusun adı var. İndi yalnız sərəncamın imzalanmasını gözləyirik". İlin sonunda prezident İlham Əliyevin əfv sərəncamı imzalayacağı gözlənir. Sonuncu əfv fərmanı 2011-ci il mayın



Elmira Axundova

26-da imzalanıb. Əfv ümumilikdə 84 nəfərə şamil edilib. Onların arasında jurnalist Eynulla Fətullayev də olub.



# Ə.Həsənov: «Azərbaycanı avtoritar rejimlər siyahısına salanlar qərəzlidirlər»

**«Biz Azərbaycanı müəyyən təsnifatlar qrupuna ayıran təşkilatların rəyinə tənqidi münasibətdəyik». Bunu jurnalistlərə açıqlamasında Prezident Administrasiyası ictimai-siyasi məsələlər şöbəsinin müdiri Əli Həsənov deyib. O, Azərbaycanı avtoritar rejimlər siyahısına salan qurumun qərəzli olduğunu bildirib: «Təəssüflər olsun ki, son zamanlar bu kimi təsnifatları aparan beynəlxalq təşkilatların çoxu obyektiv meyarlardan, təhlillərdən çıxış etmirlər. Hansısa mərkəzlərin, təşkilatların, qurumların və yaxud dövlətlərin sifarişini yerinə yetirirlər».**

*Ə.Həsənov Azərbaycan hakimiyyətinin bu cür təsnifatlaşmaları subyektiv dəyərləndirdiyini, əsasən isə reaksiya vermədiyini deyib:* «Çünki Azərbaycan dövlətinin yürütdüyü siyasət Azərbaycan xalqının iradəsinə söykənir və bunun əsas meyarı da Azərbaycan xalqının dinc, firavan həyatıdır, ölkənin dünyada öz maraqlarını, təhlükəsizliyini təmin etməsidir».

# Sumqayıtda prezidentin ad gününə 50 metrlik tort bişirildi



Foto "Azadlıq" qəzetinindir

**Sumqayıt şəhər Kimyaçılar Mədəniyyət Sarayının qarşısındakı meydanda İlham Əliyevin 50 yaşının tamam olması münasibətilə tort təqdim olunub. Tortu Sumqayıt Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizov kəsdi. O, dedi ki, bu, Avropada ən böyük tortdur. 50 metr uzunluğunda olan tortun çəkisi 12 tondur. AzadlıqRadiosu müxbirinin «Tortdan prezidentin payını göndərdinizmi» sualının cavabında E.Əzizov dedi: «Yox, bu tort camaat üçün bişirilib». Tədbir konsert proqramı ilə davam edir. Tort ilə polis arasında kordon çəkilib. Adamlara tortlar paylanır. Bundan əvvəl İlham Əliyevin ad günü münasibətilə bu qaydada tort Gəncədə bişirilirdi. Təşəbbüsün müəllifi E.Əzizov həmin vaxt Gəncəyə rəhbərlik edirdi. Ənənəyə uyğun olaraq tortun uzunluğu İlham Əliyevin yaşından asılı olaraq dəyişir.**

**BİR NEÇƏ JURNALİST SAXLANIB**

Tədbir başa çatandan sonra polis «Azadlıq» qəzetinin əməkdaşı Ramin Deko, Vidadi Məmmədov və Nazim Cəfərlini saxlayaraq fotoaparatlarını əllərindən alıb. Ramin Deko AzadlıqRadiosuna deyib ki, onları Kimyaçılar Mədəniyyət Sarayına aparıblar. Orada Sumqayıt Şəhər İcra Hakimiyyətinin işçiləri və polis müxbirlərin tədbirdən çəkdikləri fotolara baxıblar.

***Maarif Çingizoğlu***

# Mirvari Qəhrəmanlı: "Bu il Azərbaycanda neft sahəsində 22 ölüm hadisəsi olub"

**AzadlıqRadiosunun "İşdən sonra" proqramına qonaq olan Neftçilərin Hüquqlarını Müdafiə Komitəsinin sədri Mirvari Qəhrəmanlı Azərbaycan və Qazaxıstan neftçilərinin vəziyyəti haqda danışarkən deyib. Hüquq müdafiəçisi bildirib ki, Qazaxıstan neftçiləri çox ağır şəraitdə və aşağı əməkhaqqı ilə çalışırlar. Ancaq Azərbaycan neftçilərinin də vəziyyəti qənaətbəxş deyil. "Qazaxıstan neftçilərinin tətil etməyə haqqı çatır. Ona görə ki, onların yaşadığı neft şəhəri çox pis vəziyyətdədir. Onlar düşünürlər ki, aldıqları maaş iş və yaşayış şəraitinə uyğun deyil. İş şəraitinin o aldığı əməkhaqqına uyğun gəlməməsi və işin ağır olması, bir çox xəstəliklərin əmələ gəlməsi neftçilərin böyük problemidir. Bundan ağır situasiyalar bizdə də var. ARDNŞ-də də əməkhaqqı aşağı vəziyyətdədir və istənilən vaxtda bu hadisələr Azərbaycanda da baş verə bilər".**

Neft məsələləri üzrə ekspert İlham Şaban *isə deyib ki, bir çox məlumatlarda neft şirkətlərinin uğurları barədə yazılanlara rast gəlsək də, bəzi faktlara heç toxunulmur:* "Azərbaycanda ARDNŞ özü 7,6 milyon ton neft hasil edir, 7 milyarddan bir qədər artıq qaz hasil edir. bp ötən il 40 milyon ton neft hasil edib. 10 milyard kubmetrdən çox qaz hasil edib. Bir ölüm faktı yoxdur. Ancaq bütün hamısı gəlib düşüb bizim dövlət sektorunun üstünə. Bu, əməyin mühafizəsinin çox aşağı olmasının göstəricisidir. İnsan əməyinə verilməyən qiymətdir".

*Mirvari Qəhrəmanlı isə bildirib ki, onda olan məlumata görə, təkcə bu ilin 10 ayı ərzində 22 ölüm faktı baş verib:* "Bu ilin 10 ayı ərzində 22 ölüm hadisəsi qeydə alınıb. Ötən il 10 ölüm hadisəsi olmuşdu. 2009-cu ildə isə 6 ölüm



Mirvari Qəhrəmanlı

hadisəsi. Hələ bu biz biləndir. Əmək müfəttişliyinə biz müraciət etmişik, cavab vermirlər. Məndə olan siyahıda elə o qədər də ağır xəsarət almış insanların adları var. Özü də ki, ölüm hadisələri elə faciəli ölüm hadisələridir ki, adam dəhşətə gəlir. İş şəraiti yox, xüsusi geyimlər yox. Bu qiymətsizliyi fəhlə görür axı".

Hüquq müdafiəçisi və ekspert hər ikisi belə halları ədalətsiz bölüşdürülmə adlandırıblar.

Dövlət Neft Şirkətinin sözçüsü Nizaməddin Quliyev verilişdə iştirak etməkdən imtina edib. Verilişdən sonra səslənən ittihamlarla bağlı yenidən Nizaməddin Quliyevlə əlaqə saxladıq. Nizaməddin Quliyev veriliş ərzində səslənən fikirləri əsassız adlandırdı. İl ərzində neftçilərin iş şəraitində ölümü və xəsarət alması ilə bağlı statistikanı isə açıqlamadı.

**Verilişi tam olaraq AzadlıqRadiosu.az saytında dinləyin.**

***Xədicə İsmayılova,***
***Kamran Mahmudov***





Ən aktual, ən qaynar müzakirələr həftənin hər iş günü AzadlıqRadiosunun efirində. **Saat 17-dən 19-dək**. **AzadlıqRadiosu.az** saytından verilişə qulaq asa və ya baxa bilərsiniz. Geciksəniz, AzadlıqRadiosu.az saytında səs arxivindən verilişlərə sonradan da qulaq asa bilərsiniz.

Veriliş zamanı suallarınızı verin:
SMS: (+994 50 744 10 17)
Telefon: 436 – 77 - 41 Elektron ünvan: efir@azadliqradiosu.az

# Ким Чжон Ын: попытка прогноза


Ким Чен Ир (слева) и Ким Чжон Ын, Пхеньян, 10 октября 2010

*Лидер Северной Кореи Ким Чен Ир умер, порулив страной 17 лет. Незадолго до смерти он произвел младшего сына Ким Чжон Ына, - которому нет и тридцати, - в генералы, ввел в состав ЦК правящей партии, а также сделал зампредом Центрального военного комитета партии. Информационное агентство КНДР уже призвало народ объединиться вокруг молодого Ким Чжон Ына, а СМИ назвали его «Великим преемником».*

Кстати, по старой советской примете, тот, кто становится главой комиссии по организации похорон предыдущего лидера, становится следующим лидером. Так было после смерти Брежнева и Черненко. Ким Чжон Ын назначен главой похоронной комиссии...

Пока неизвестно, хватит ли у него сил, чтобы усидеть в кресле отца - официальным преемником отец его назначить не успел, а даже если успел бы, это решает не все, там многое решается коллегиально...

Северная Корея – страна живого неосталинизма, и туристы ездят туда, чтобы увидеть все это своими глазами. Срок службы призывников в армии КНДР от 5 до 12 лет. Население Южной Кореи 49 млн. человек (по данным 2007), а Северной - более 23 млн. (2006). Это последствия тоталитарного управления вместе с плановой экономикой, бесхозяйственностью, которые привели к масштабному экономическому кризису в КНДР, и как результат – массовому голоду. Нефти у них нет и от голода погибли, по самым заниженным данным, несколько сот тысяч жителей Северной Кореи.

Зато КНДР обладает ядерным оружием и пытается запускать межконтинентальные ракеты, хотя и неудачно. Теперь право распоряжаться ядерной кнопкой перейдет к молодому человеку, привыкшему приказывать всем, кроме своего отца, без серьезного политического опыта и практически без тормозов. Хорошо хоть, его приучили считаться с грубой и превосходящей силой...

Будущее его страны и его самого достаточно туманно, но одно можно предсказать уже сейчас - вряд ли Ким Чжон Ын сможет оставить власть своему сыну, как свой отец и дед. Это очень маловероятно при волне «арабских революций», даже при попытках самоизоляции КНДР...

***Чингиз Султансой***

# Ирак всерьез встревожил Вашингтон

*Был ли полный вывод американских войск из Ирака преждевременным и неосторожным шагом? Этот вопрос в разных интерпретациях зазвучал в американской прессе уже спустя два дня после вывода последнего американского солдата из Ирака.*

Политический кризис в Багдаде, неожиданный для Вашингтона, начался на следующий день после ухода американских войск предъявлением обвинений в причастности к терроризму одному из вице-президентов Ирака Тареку Хашеми, представителю суннитской общины. Хашеми скрывается от ареста на территории курдской автономии.

Иракский премьер Малики также призвал парламент отстранить от должности своего заместителя, суннита Салеха Муталака. 21 декабря Малики потребовал от курдов выдать Хашеми и предупредил бойкотирующих парламент законодателей-суннитов о том, что они рискуют оказаться за пределами властных структур. Согласно американским дипломатическим источникам, обвинения в адрес вице-президента, скорее всего, политически мотивированы. Разрядить кризис не помогло экстренное телефонное вмешательство вице-президента США Байдена, призвавшего премьера Малики и спикера парламента провести экстренные переговоры со всеми иракскими лидерами.


Опальный вице-президент Ирака Тарек Хашеми

21 декабря респектабельная газета Christian Science Monitor первой из ведущих средств информации, высказала опасение, что политический кризис может вылиться в гражданскую войну, если угроза иракского премьера отодвинуть суннитов от власти будет осуществлена.

Потенциальная нестабильность в Ираке может оказаться крайне неприятной новостью для президента Обамы в год президентских выборов.

***Юрий Жигалкин***

# Париж призывает Анкару не раздувать дипломатический конфликт

*Франция призывает Турцию сохранять спокойствие и не раздувать дипломатический конфликт, возникший в связи с одобрением нижней палатой французского парламента законопроекта об уголовном наказании за отрицание "геноцида армян" в Османской империи. В пятницу премьер-министр Турции Реджеп Эрдоган обвинил Францию в массовых убийствах жителей тогдашней ее колонии Алжира и по Африке в целом, заявив, что докажет это.*

Ранее в пятницу посол Турции покинул Париж. О приостановке политических и военных отношений с Францией Анкара заявила в вчера четверг - сразу после принятия законопроекта французскими законодателями. Теперь документ поступит на рассмотрение Сената, где перспективы его принятия все еще считаются неясными.

# Azərbaycan gözləmə mövqeyi tutur


Elmar Məmmədyarov

**«Onlar 100 il öncə baş verən hadisəyə münasibət bildirirlərsə, onda Xocalı soyqırımına, 1 milyon azərbaycanlının qaçqın və məcburi köçkün düşməsinə də münasibət bildirsinlər». Bunu Azərbaycanın Xarici İşlər naziri Elmar Məmmədyarov Fransa parlamentində müzakirəyə çıxarılan «erməni soyqırımı»na dair qanun layihəsinə münasibət bildirərkən deyib. Qanun layihəsində deyilir ki, Birinci Dünya müharibəsi zamanı Osmanlı imperiyasında erməni soyqırımını inkar etmək cinayət sayılır.**

E.Məmmədyarov bildirib ki, belə bir qərar problem yaratmaqdan başqa bir şeyə xidmət etmir. Amma o, Azərbaycanın Fransaya qarşı konkret hansı addımlar ata biləcəyini açıqlamayıb: «Qanun layihəsinin qəbulu hələlik birinci mərhələdədir, hələ ki, prosesi izləyirik».

Üstəlik, E.Məmmədyarov ATƏT-in Minsk Qrupunda Fransanın təmsilçiliyinin Qarabağ probleminin ədalətli həllinə ciddi maneə yaradacağını düşünmür: «Minsk Qrupunun Fransadan olan sabiq həmsədri Bernard Fasye regiona son səfəri zamanı Azərbaycan torpaqlarının işğalı faktını etiraf edib. Bu həqiqəti hamı dərk və etiraf etməlidir».

# Venesiya Komissiyasının siyasi partiyalar haqqında qanuna rəyi

**Avropa Şurasının Venesiya Komissiyası «Siyasi partiyalar haqqında» qanuna dəyişikliklər layihəsi barədə rəyini açıqlayıb. Rəydə bildirilir ki, dəyişikliklər siyasi partiyaların fəaliyyətinin daha dəqiq tənzimlənməsini nəzərdə tutur. Amma boşluqlar qalmaqdadır. Orada siyasi partiyaların öz vəsaitlərini xərcləməsinə nəzarət, o cümlədən şəxsi ianələr və korrupsiyanın qarşısının alınması üçün effektiv tədbirlər yoxdur. Üstəlik, ictimaiyyətə açıqlanmalı olan maliyyə məlumatları aydın göstərilməyib. Venesiya Komissiyası həmçinin deyir ki, onların 2004-cü ildə verdiyi rəydə müəyyən edilən bəzi problemlər həllini tapmayıb. Bura korrupsiya ianələrinin qarşısının alınması tədbirlərinin səmərəsizliyi, özəl ianələrlə əlaqədar həmkarlar ittifaqlarına qarşı mümkün diskriminasiya daxildir.**

Venesiya Komissiyasının daha bir tənqidi xarici vətəndaşların və vətəndaşlığı olmayan şəxslərin siyasi həyatdan təcrid olunmasıdır. Komissiyanın 2004-cü ildəki rəyində qeyd edilib ki, qanunun müddəaları siyasi partiyadan konstitusiya quruluşuna qarşı hər hansı akt törətməməyi tələb edir. Bu müddəadan dinc yolla təməl konstitusion dəyişikliklərə çalışan partiyanın qeydiyyata alınmaması və ya ləğvi üçün istifadə oluna bilər. İndiki rəydə də deyilir ki, qanuna dəyişikliklər bu ehtimalı nəinki azaltmadı, əksinə, artırır. Bu isə Avropa İnsan Haqları Məhkəməsinin presedent hüququna ziddir. Yalnız müzakirələrdən sonra mətnə «zorakı yolla dəyişmək» ifadəsi salınıb. Komissiya bunu müsbət addım kimi qiymətləndirir. Təklif olunan dəyişikliklərdə habelə siyasi partiya üzvlərinin sayı 1000-dən 5000-ə qaldırılır. Komissiya bunu məqbul saymır. Üstəlik, hesab edir ki, dəyişikliklər ediləndən



sonra yeni qanun etnik azlıqları təmsil edən partiyaların yaradılmasını çətinləşdirə bilər. Siyasi partiyaların ləğvinə gəlincə, Venesiya Komissiyası düşünür ki, qanunda bunu hansı icra orqanının həyata keçirəcəyi göstərilməlidir. Bu orqan tərəfsiz və hökumətdən asılı olmamalıdır.

*Komissiyanın rəyinə münasibətləri necədir? Müsavat başqanı İsa Qəmbərin, deputat Zahid Orucun, Prezident Administrasiyasının şöbə müdiri Əli Həsənovun və Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi Mərkəzinin rəhbəri Anar Məmmədlinin fikirlərini AzadliqRadiosu.az saytında oxuya bilərsiniz.*

***Kəbiran Dilavərli, Şahnaz Bəylərqızı***

# Masallıda «hər evdə aclıq keçirək» aksiyası

*Dekabrın 18-də Masallı rayonunun Musaküçə kəndində Masallı Ziyalılar İctimai Birliyinin sədri Məmmədağa Eynullayev aclıq aksiyasına başlayıb. Aksiyada kənd sakinləri Ramil İbadullayev və Hikmət Babayev də iştirak edir. Məmmədağa Eynullayev və Ramil İbadullayev YAP üzvləridir. Aksiya «hər evdə aclıq keçirək» devizi ilə keçirilir. Məmmədağa Eynullayev AzadlıqRadiosunun müxbirinə deyib ki, bu gün onlara müxtəlif kəndlərdə yaşayan 15 nəfər də qoşulub. Aclıq edənlər Masallı rayonundakı məmur özbaşınalığına, sahibkarlara olan təzyiqlərə, rayon sakinlərinin şikayətlərinə qulaq asılmamasına etiraz edirlər.*

Masallı Rayon İcra Hakimiyyətindən isə deyilənlərə münasibət bildirməyiblər. Musaküçə kənd icra nümayəndəsi Şəmsəddin Seymurov isə AzadlıqRadiosunun müxbirinə bildirib ki, aclıq edənlərin dedikləri yalan və böhtandır. O deyib ki, «rayonda kifayət qədər işlər gedir, 13 kəndə qaz çəkilir, son iki ildə isə rayonda 32 yeni məktəb tikilib».

Aclıq edənlər aksiyanı tələblərinə reaksiya verilənə qədər davam etdirəcəklərini bildiriblər.

***Müstəcəb Məmmədov***

# Rüşvətdən şikayət edən müəllimin aqibəti



*Gəncə Dövlət Universitetinin ümumi fizika kafedrasının baş müəllimi Fikrət Hacıyev deyir ki, 22 il çalışdığı iş yerindən dekabrın 22-də çıxarılıb. Səbəbi isə universitetdə rüşvət olması barədə şikayətlər yazmasında görür. Çoxdan universitet rəhbərliyinin hədəfində olduğunu deyən baş müəllim 5 ildən bir keçirilən seçkidən keçmədiyinə görə əmək müqaviləsinin müddəti uzadılmayıb. Onun sözlərinə görə, işdən azad edilməsinin əsl səbəbi isə universitetdəki rüşvətxorluq hallarına etiraz etməsi olub: "Kütləvi rüşvətxorluqdur. Tələbələrdən, müəllimlərdən pul yığırlar, mən rüşvət almadığıma görə rüşvət də vermirəm. Maaşımı verəsi deyiləm ki!?"*

Deyir korrupsiya ilə bağlı şikayətə heç kim baxmır, nə prokurorluğun korrupsiya ilə mübarizə idarəsi, nə də prezident: "Noyabrın 30-da Baş Prokurorluğun Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə şikayət göndərəndən sonra zəng etdim ki, bəs, nəticəsi necə oldu? Dedilər, ərizələrə 30 gündən sonra cavab verilir. Heç 30 gün başa çatmamış mənim özümü işdən çıxartdılar".

Fikrət Hacıyev deyir ki, əvvəllər də ali təhsil ocağındakı rüşvətxorluq, korrupsiya halları ilə bağlı şikayət göndərib. Buna görə universitet rəhbərliyi ona şiddətli töhmət verib. Ancaq o, Gəncə şəhər prokuroruna töhmətdən şikayət etdikdən sonra prokuror vətəndaşın müraciət etmək hüququ olduğunu əsas gətirərək müəllim barəsindəki töhməti ləğv edib.

**UNİVERSİTET RƏSMİSİ İNKAR EDİR**

*Gəncə Dövlət Universitetinin dekanı İldırım Qasımov ali məktəbdəki rüşvətxorluqla bağlı deyilənləri təkzib etdi:* "Azərbaycanda heç kim rüşvət almır, ona qarşı da mübarizə aparırıq. Fikrət Hacıyev nə teleqram vurur, nə danışır, özü bilər. Hər bir müəssisənin rəhbərinin ixtiyarı var ki, işçi ilə müqavilə bağlamasın. Onun müqavilə vaxtı bitib, rəhbərlik də onunla müqavilə bağlamayıb. Orda səbəb göstərilmir, yazılır ki, mən bu adamla işləmək istəmirəm, vəssalam".

**VƏKİLDƏN MÜƏLLİMƏ MƏSLƏHƏT, YENƏ ŞİKAYƏT YAZ...**

*Hüquqşünas Namizəd Səfərov deyir ki, əgər müəllim işlədiyi ali məktəbdəki rüşvətxorluq və korrupsiya halları ilə bağlı şikayətlər edibsə, buna görə əvvəllər töhmətlə cəzalandırılıbsa, növbəti müraciətindən sonra işdən çıxarılmasında qərəzçilik var:* "Düzdür, qanunvericilik bu hüququ tanıyır ki, müddətli bağlanmış əmək müqavilələri işəgötürən tərəfindən uzadılmaya bilər. Ancaq hər bir qərar mütləq əsaslandırılmalıdır. Yaşı, təhsili, savadı, qabiliyyəti, elmi dərəcəsi buna imkan verirsə, ona heç vaxt deyə bilməzlər ki, vaxtın bitib, mən səni işdən çıxarıram".

**BAŞ PROKURORLUQ ARAŞDIRIR**

Baş Prokurorluğun mətbuat xidmətinin rəhbəri Eldar Sultanovla əlaqə saxladıq. O, Gəncə Dövlət Universitetinin müəllimi Fikrət Hacıyevin Korrupsiyaya Qarşı Mübarizə İdarəsinə ünvanladığı şikayət ərizəsi ilə bağlı araşdırmaların hansı şəkildə aparılmasına dair suallarımızı idarə rəhbərliyinə çatdırdı. Ancaq sonrakı zənglərimizdə məsələ ilə bağlı hər hansı cavab əldə edə bilmədiyini dedi.

**"Qaynar Xətt"** dinləyici şikayətləri əsasında hazırlanan verilişdir. Sizin də şikayətiniz və ya məlumatınız varsa, qaynar xəttə zəng edin. **Telefon 436 77 41.** Bizə zəng edənlər mütləq koordinatlarını (ad, familiyasını və telefonunu) saxlamalıdır. **AzadliqRadiosu.az** saytına daxil olmaqla da verilişlə əlaqə saxlaya bilərsiniz.

Aparıcı Esmira Cavadova.

E-mail: esmer_alda@mail.ru






İxtiyar Nadirov

## Əlili orduya çağıran komissar vəzifədən azad edildi

*Eşitmə qabiliyyətini itirmiş şəxsi hərbi xidmətə çağıran Astara rayon hərbi komissarı, polkovnik-leytenant Rafael Vahidov tutduğu vəzifədən azad edilib. Bunu «APA»ya Müdafiə Nazirliyi mətbuat xidmətinin rəisi Eldar Sabiroğlu deyib. Bir sıra cavabdeh tibb işçiləri də cəzalandırılıb. Onlardan 4-nə şiddətli töhmət verilib, 2-nə vəzifəsinə tam uyğun olmaması barədə xəbərdarlıq edilib. Daha 1 nəfərin isə rütbəsi aşağı endirilib. Əsgər İxtiyar Nadirov isə eşitmə qabiliyyəti olmadığı üçün ordudan tərxis edilib.*

Astara rayonunun Pensər kənd sakini İxtiyar Nadirov cəbhə xəttində yerləşən Tərtər rayonunda hərbi xidmət çəkirdi. Əsgərin bir qulağı anadangəlmə eşitmir, digər qulağı isə çox zəif eşidir.

## TQDK sədri: "Dərsliklərdəki səhvləri ictimai müzakirəyə çıxarmaq lazımdır"

«Orta məktəb dərsliklərində buraxılan səhvləri ictimai müzakirəyə çıxarmaq lazımdır. Çünki hər bir ailədə kimsə orta məktəbdə oxuyur. Bu, hər bir ailəyə aid olan məsələdir». Bu barədə Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının (TQDK) sədri Məleykə Abbaszadə bildirib. O deyib ki, bu məsələlərə diqqət yetirilmir. «Amma həmin məsələ mənim dilimdən səslənəndə ona siyasi don geyindirirlər və qısqanclıqla yanaşırlar. Mən bu fikirləri mütəxəssislərə istinadən deyirəm və çıxış yolunu da göstərirəm. Çıxış yolu bizim dərc etdiyimiz vəsaitlərdir», - TQDK sədri bildirib. M.Abbaszadə bundan əvvəl də dərsliklərdə problemlərin olduğunu bildirmişdi. Ancaq Təhsil naziri Misir Mərdanov bunu təkzib edirdi.

# Baş prokuror: "Fərziyyələrdən biri R.Tağının İslamla bağlı məqaləsinə görə öldürülməsidir"



Zakir Qaralov

**Yazıçı Rafiq Tağının qətlinə dair Avropa Parlamentinin 15 dekabr 2011-ci il tarixli qətnaməsi ilə bağlı Azərbaycan Respublikasının baş prokuroru Zakir Qaralov Trend-in suallarını cavablandırıb.**

- İlk növbədə qeyd etmək istərdim ki, Avropa İttifaqının ölkəmizin ictimai-siyasi həyatında baş verən proseslərə yaxından diqqət yetirməsini təqdirəlayiq hal hesab edirəm. Bununla yanaşı, biz həmişə ədalətli fikir və yanaşmanın tərəfdarı olmuşuq. Rafiq Tağıyevin qəsdən öldürülməsi faktına görə başlanmış cinayət işinin istintaqı ilə bağlı Avropa İttifaqının tövsiyələri ilə tanışıq.

Bu cinayətin qeyri-aşkar şəraitdə törədilməsi nəzərə alınmaqla, cinayətdə iştirak etmiş şəxslərin müəyyən edilməsi məqsədi ilə 22 noyabr 2011-ci il tarixli birgə əmrlə iş üzrə prokurorluq, daxili işlər, milli təhlükəsizlik və ədliyyə orqanlarının təcrübəli əməkdaşlarından ibarət istintaq-əməliyyat qrupu yaradılmışdır.

Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinə və tərəfdar çıxdığı beynəlxalq müqavilələrin müddəalarına əməl edilməklə hadisənin baş verdiyi yerdən Rafiq Tağıyevin yaşadığı evədək olan əraziyə kriminalistik texnika və avadanlıqlardan istifadə edilməklə müfəssəl baxış keçirilmiş, qətlin törədilməsi ilə bağlı bütün mümkün fərziyyələrin yoxlanılması istiqamətində zərərçəkmiş şəxs Rafiq Tağıyev və çoxsaylı şahidlər dindirilmiş, müayinə, götürmə, istintaq eksperimentləri aparılmış, zərərçəkmiş şəxsin hərəkət marşrutu üzrə quraşdırılmış müşahidə kameraları müəyyənləşdirilərək mütəxəssislərin iştirakı ilə təxirəsalınmaz istintaq hərəkətləri keçirilmiş, zəruri ekspertizalar təyin edilmiş, habelə sair prosessual tədbirlər görülmüşdür.

İstintaqın tam, hərtərəfli və obyektiv aparılmasını təmin etmək məqsədi ilə cinayət işinin istintaqını baş prokuror olaraq xüsusi nəzarətimdə saxlamaqla, mütəmadi olaraq istintaq-əməliyyat qrupunun hesabatları dinlənilir və cinayəti törətmiş şəxsin müəyyən edilərək istintaqa cəlb edilməsi istiqamətində tərəfimdən konkret göstərişlər verilmişdir.

Hazırda cinayət işi üzrə istintaq-əməliyyat planına müvafiq olaraq digər dövlət qurumları və ictimaiyyətlə səmərəli qarşılıqlı əməkdaşlıq şəraitində intensiv istintaq-əməliyyat tədbirləri davam etdirilir.

*- Qətnamədə Avropa Parlamenti həmçinin Rafiq Tağının qətlini qəti şəkildə pisləyir və Samir Sədaqətoğlunun təhlükəsizliyinə dair narahatlığını ifadə edir, eyni zamanda Azərbaycan hakimiyyəti tərəfindən Rafiq Tağının qətlinin açıq şəkildə mühakimə olunmaması və istintaqın gedişi barədə ictimaiyyətə məlumat verilməməsindən məyus olduğunu bildirir.*

- Rafiq Tağıyevin qəsdən öldürülməsi faktına görə başlanmış cinayət işi üzrə istintaq fərziyyələrindən birinin onun öldürülməsinin İslam dini ilə bağlı məqaləsinə görə olmasını nəzərə alaraq, həmin məqalənin dərc olunduğu "Sənət" qəzetinin baş redaktoru Hüseynov Samir Sədaqət oğluna qarşı yarana biləcək təhlükə üzrə adekvat tədbirlərin həyata keçirilməsi məqsədi ilə rəsmi olaraq Daxili İşlər Nazirliyinə müraciət olunmuşdur. Bununla bağlı müvafiq rayon polis idarələri tərəfindən Rafiq Tağının ailə üzvlərinin yaşadıqları binanın və şəhər qəbiristanlığının ətrafında əlavə naryadlar ayrılaraq təhlükəsizlik tədbirləri həyata keçirilir. Eyni zamanda Samir Hüseynovun təhlükəsizliyi aidiyyəti polis şöbəsi tərəfindən təmin olunur.

# Pirat məhsulların bazarda payı azalır, ancaq hələ 40-90% həddindədir

**"Azərbaycanda intellektual mülkiyyət sahəsində piratçılığın səviyyəsi azalır. Piratçılıq kitab nəşrində 61 faizdən 40 faizə, kompyuter proqramlarında 96 faizdən 88 faizə, audiovizual məhsul istehsalında 96 faizdən 70-80 faizə düşüb".**

*Bunu APA-ya Müəllif Hüquqları Agentliyinin hüquq şöbəsinin müdiri Xudayat Həsənli bildirib. O bildirib ki, əqli məhsullara nəzarət markalarının vurulmasından sonra ölkədə piratçılığın səviyyəsi daha da aşağı düşəcək:* "Nəzarət markalarının yapışdırılması "Əqli mülkiyyət hüquqlarının təminatı və piratçılıqla mübarizə haqqında" qanun layihəsinin qəbulu ilə tənzimlənəcək. Hələlik bu qanun qəbul olunma mərhələsindədir.

Bundan sonra kitablara, çap məhsullarına, fonoqramlara, audiovizual əsərlərə, kompyuter proqramlarına nəzarət markaları yapışdırılacaq. İndi bu markaların vurulması mümkün deyil".

X. Həsənli bildirib ki, pirat məhsullara görə cərimələrin sərtləşdirilməsi də müzakirə olunur. Azərbaycanda pirat məhsulların bazarda payı azalsa da, bu



pay yüksək olaraq qalır.

Hər 10 kompyuter proqramından 9-u, hər 5 kitabdan 2-si, hər audi-video diskdən 8-i pirat məhsuludur, yəni intellektual mülkiyyət oğurluğudur.

# Vaslav Havel belə deyirdi-seçmə sitatlar


Vaslav Havel

**Məşhur dissident, çex yazıçısı Vaslav Havel dekabrın 23-də son mənzilə yola salındı. Onun bu yaxınlarda Bakıda çap edilən "Fikir Sexi" kitabında yer almış seçmə fikirlərindən:**

- Uzun illər təqib edilən və qəfildən prezident olan dissidentlərin dünyanı bir anda dəyişəcəklərini gözləmək, böyük səhvdir. Totalitar rejimdə şərlə üzləşən bizlər, şərə biganəliyin ilk əlamətlərinin təhlükəsini dərhal hiss etməli idik. Hərdən öz-özümə deyirəm ki, müəyyən dərəcədə tarixin səhvi olmuşam. Yəni bəlkə də, ümumiyyətlə, layiq olmadığım və sonsuz sayda təsadüflərin nəticəsi olmuş vəziyyətə və rola düşmüşəm.


Vaslav Havellə vida mərasiminə toplaşanlar

- *Milli marağa bənzər nəsə mövcuddursa, bu, dilin mühafizəsi olmalıdır. KİV-də danışılan dil, siyasətçilərin danışdığı dil, sadəcə olaraq, biabırçılıqdır. Demirəm ki, mən daha yaxşı danışıram, amma ən azından, mən buna diqqət yetirirəm.*

- Mən səhərlər pivəni dərman kimi, yatmazdan əvvəl isə yuxugətirici kimi içirəm. Günorta yeməyinin yanında şərabı üstün tuturam.

- *Yaxınlaşan ölüm haqqında daha tez-tez fikirləşirəm və ölümdən sonra nə olacağı barədə düşünürəm. Sadəcə, düşünmürəm, həm də hiss edirəm ki, necəsə ona hazır olmalıyam. Niyə ölmək istəmədiyimi dəqiq bilmirəm, amma ölmək istəmirəm.*

- Pyes müəllifindən daha ağıllı olmalıdır.

- *Prezident Putinin (Rusiya prezidenti- red) dövrü yeni diktatura növüdür. Elə təkcə görünməyən forması ilə o daha təhlükəlidir. Kommunizmin və kapitalizmin ən pis xüsusiyyətlərinin bu növdə birləşməsi təəccüblüdür. Sadə dillə desəm, hakimiyyətə "keqebeşnik"lərdən və mafiozlardan ibarət bir quldur dəstəsi gəlib. Həm də onlar yaxın keçmişdən dərs almış insanlardır, buna görə də çox şeyi Brejnev dövründə olduğu kimi açıq etmirlər.*

- Prezident Putinlə nahardan imtina etməyin mənası yoxdur. Amma fürsətdən istifadə edərək, ona xoşagəlməz suallar vermək lazımdır.

- *Qeyri-demokratik şəraitdə söz seçicidən və ya əsgər ordusundan daha çox gücə malik olur. Amma heç vaxt bilmirik ki, reallığa təsir edən söz nə dərəcədə həqiqətdir.*

- Daha az şər nəzəriyyəsi, az şərin də, şər olduğunu istisna etmir.

- *Mən özümü kifayət qədər depressiv insan sayıram, amma yəqin iradəm o qədər güclüdür ki, bunu göstərmirəm.*

- Münaqişələri və cəbhələşməni sevmirəm, harmoniya arzulayıram.

- *Artıq qırx ildir ki, mənim daim kimisə ruhlandırmağımı və ümid yaratmağımı istəyirlər. Amma tükənməz ümidi hardan alım, deyin siz Allah?*

- 1975-ci ildə məni yalnız hadisələrin obyekti olmaq və hökumətin mənimlə nə etməyi qərara alacağını gözləmək hissi narahat edirdi. Məni həbs edəcəklər, ya yox, daha çox təqib edəcəklər, yoxsa daha az. Qərara aldım ki, elə bir şey edim ki, əksinə, onlar mənimlə nə etməli olduqları barədə narahat olsunlar. Bu psixoloji durumda Qustav Qustaka məktub yazdım (1975-ci ildə Vaslav Havelin Çexoslovakiya Kommunist Partiyasının MK baş katibinə yazdığı açıq məktub-red).

- *Boş səhifə üzərində oturub işləməyi xoşlamıram, istənilən başlanğıcdan qorxum var. Bundan hər yolla yayınmağa çalışıram. Bu mənada prezidentlik dövrü mənim üçün yaxşı məktəb oldu. İstirahət günləri istəsəm də, istəməsəm də nitqlərimi yazmağa məcbur idim və heç kim məndən bunun üçün ilhamımın olub-olmadığını soruşmurdu.*

- Mən vətəndaşlıq mövqeyimdən əl çəkmirəm, amma siyasəti o qədər də diqqətlə izləmirəm. O, bəzən məni əyləndirir, çünki yarıbulvar sensasiyaları silsiləsi kimi görünür.

- *Dəmir pərdənin aradan qaldırılmasından və demokratiya bolluğundan doğan eyforiyadan sonra hansısa əks dalğa gəldi – elə bil cəmiyyətin qara hissləri və instinktləri üçün qapılar açıldı.*

- Ümumi rifah istəyən ağıllı insanların hamısının tərəfdarı olmaq istəyərdim - heç bir konkret ideoloji doktrinanın əsiri olmayan və həqiqəti bu doktrinaya uyğun saxtalaşdırmayan insanların.

- *Düşünürəm ki, özümdən sonra qarmaqarışıqlıq və arxivimdə xaos qoyub getmək hissi ilə ölmək mənə çətin olardı. Bu, ölümə yüngül bürokratik yanaşmadır.*





Sevda İsmayıllı hər həftənin çərşənbə günü, günorta **saat 12-də** efirə bir sualla başlayır: **"Bir "Can Bakı" deyərsizmi?"**... Bakının ictimai və mədəni yaşamı, düşüncə və əyləncə həyatı haqda, maraqlı şəxslərin iştirakı ilə keçirilən bu proqramın təkrarları da həftə boyu AzadlıqRadiosunun efirində səslənir. **"Can Bakı"nı AzadliqRadiosu.az** saytında da dinləyə və oxuya bilərsiz.

# «Zeynalabdin Tağıyevin qızı həkim çağırmırdı, qorxurdu onu öldürərlər»

**Azərbaycan mesenatı Hacı Zeynalabdin Tağıyevin qızı Sara xanımın yoxluğundan 20 il keçdi. AzadlıqRadiosunun «İz» proqramı bu nəcib xanımın xatirəsini yazıçı Teyyub Qurbanla anır.**

**DÖŞÜMDƏ KOMSOMOL NİŞANI VARDI**

**-Teyyub müəllim, Sara xanımla necə tanış oldunuz?**

-Mən 1954-cü ildə Universitetin jurnalistika fakültəsinə daxil olmuşam. Universitet o zaman indiki İstiqlaliyyət küçəsində yerləşirdi. Sara xanımı ilk dəfə o küçədə görmüşdüm. Əlində çanta, qoca, kimsəsiz bir qadın kimi... Bir il sonra Sara xanımla elə universitetdə tanış oldum. Universitetin əsaslı kitabxanasının şərqşünaslıq bölümü vardı. Onun müdiri Kiçikxanım adlı ziyalı bir xanım idi. O bir gün mənə dedi ki, yanıma bir qadın gələcək, de ki, onu qapıdan buraxsınlar. Gəlib gördüm küçədə gördüyüm qadındır. Onunla içəri keçmək istədim, Kiçikxanım dedi hələ gəlməginən. Çünki döşümdə komsomol nişanı vardı, rəsmi adamlardan da Sara xanım çəkinirdi. Kiçikxanım dedi hər cümə günü Sara xanım mənim yanıma gəlir. Bir yerdə nahar edirik. Çantasında da yağını, pendirini, çörəyini gətirir. Və heç kimin də çörəyini yemir. Gələn cümə gələrsən, tanış edərəm. Gəldim, tanış elədi ki, bu, əlaçıdır, jurnalistikada oxuyur.

**QAPISI AÇIQ OLARDI**

Universiteti bitirəndə evinə də getdim. O, Şərifzadə küçəsində yaşayırdı. Birinci mərtəbədə tək qalırdı. Qapısı həmişə açıq olardı. Qapını döyərdin, deyərdi ki, gəlirəm. Gözləri yaxşı görmürdü onun.



Tanıdığı adamların əlini sıxmaqla kim olduğunu bilərdi. Bir neçə dəfə getdim yanına, həyatını mənə danışdı. O zamanlar bir jurnalist vardı—Mailə Muradxanova, ona dedim ki, belə bir yazı yazmaq istəyirəm. Dedi, yaz! Mən də yazdım. Arxivlərdən də sənədlər tapdım. Sonra da yeni sənədlər əlavə edib «Sara» adlı bir əsər yazdım. Təəssüflər olsun ki, az tirajla çıxıb—cəmi 200 nüsxə. Amma onu təkrar nəşr etdirmək fikrim var.

**HACI CÜMHURİYYƏTİ YARADANLARDAN BİRİDİR**

Hacı Zeynalabdin olmasaydı, Azərbaycan Cümhuriyyətinin iqtisadi bünövrəsi olmayacaqdı. Cümhuriyyətin baniləri—xüsusən M.Ə. Rəsulzadə Hacının yaxın adamı olub. Hacının var-dövləti Müsavat Partiyasına xərclənib. Bu partiya «İsmailiyyə» binasında yerləşirdi. Yəni Hacı Zeynalabdin Tağıyev müstəqil Azərbaycan Cümhuriyyətini yaradanlardan biridir. İndi məni yandıran budur ki, nə Tağıyevə qiymət verirlər, nə də qızı Sara xanıma. Heykəlini götürüblər. Mən başa düşmürəm, Tağıyevin əzəmətli heykəlini kombinatın önündən kimlər götürüb? Onun adına Bakıda niyə metro stansiyası yoxdur?

**MİLYONÇU QIZI—ÇİLİNGƏR KÖMƏKÇİSİ...**

Bolşeviklər gəlib və Hacının hər şeyini əlindən alıblar. Mərdəkandakı bağında yaşamağa başlayıb. Sona xanım xəstə olub. Kürəkəni—Saranın əri Zeynalabdin də xaricə gedib. Sara xanım atasıyla qalıb.

• 1924-cü ildə Hacı vəfat eləyib, daha sonra Sona xanım. Sara da baş götürüb gedib Leninqrada. Əvvəlcə kitabxanada çalışıb, sonra zavodda tokar köməkçisi... Orada tatar Nikolay Sarayev adlı bir nəfər buna vurulub. Ailə qurublar. Müharibə başlayanda Nikolay cəbhəyə gedib. 1942-ci ildə ölüm xəbəri gəlib. Saranın o vaxt iki övladı varmış. Onları da götürüb Bakıya gəlib...

**-Bakı Sara xanımı necə qarşılayıb?**

**ATA EVİNDƏN BİR GECƏLİK YER...**

- Sara xanım Bakıda qalmağa yer tapmayıb. Oğlanlarını yetimxanaya verib.



Teyyub Qurban

Axşamçağı gəlib atasının evinin qabağına. Bu bina o vaxt hərbi hospital olub. Onu içəri buraxmayıblar. Deyib ərim cəbhədə ölüb, sabah Hərbi Hospitala gedəcəyəm. Xahiş edirəm, bir gecəlik yer verin. Səsə baş həkim gəlib. Sara ona deyib ki, küçədə soyuqdur, mənə elə qapının ağzında yer verin, çantamı başımın altına qoyub yataram... İcazə veriblər.

**BAĞIROV SORUŞUB Kİ, KİMDİR GƏLƏN?**

Sabahı Hərbi Komissarlığa gedib, vəziyyətini danışıb. Hərbi komissar M.C.Bağırova zəng çalıb ki, bir nəfər gəlib Leninqraddan, qeydiyyatı yoxdur. Bağırov maraqlanıb ki, kimdir o adam? Deyib Sarayeva Sara Zeynalabdinovna. Bağırov onları yaxşı tanıyırmış. Tapşırıb ovaxtkı Maarif naziri Süleyman Rəhimova. Deyib savadlı qadındır, ona münasib iş tap. Sara xanım rus dilini ruslardan yaxşı bilirdi. Bu dildə elmi məqalələr, dissertasiya yazmışdı. Özüm görmüşəm. Sara xanımı Maarif Nazirliyinin kadrlar şöbəsinə təlimatçı götürürlər. Yaxşı maaş, ev verirlər. 1956-cı ilə qədər orada işləyib. 1956-da göndəriblər ovaxtkı Rus Dili və Ədəbiyyatı İnstitutunun kitabxanasına. 1956-da Bağırov güllələnir, bir il sonra komissiya yaranır və komissiya qərara alır: «Atası milyonçu Tağıyevin maarifpərvərliyindən dissertasiya yazmaq istədiyinə görə institutdan kənar edilsin». O komissiyanın qərarı məndədir. Arxivdən götürmüşəm.

**-Bəs işsiz-gücsüz necə yaşadı Sara xanım?**

- **1957-Cİ İLDƏN KÜÇƏLƏRƏ ATILDI...**
- **DƏRMAN İÇMİRDİ, HƏKİM ÇAĞIRMIRDI**
- **SARA XANIM SOVET HÖKUMƏTİNİN ÇÖKÜŞÜNÜ GÖRDÜ**

**Yazının tam mətnini AzadliqRadiosu.az da oxuyun.**

***Sevda İsmayıllı***

# Ramiz Rövşən: «Havel göstərdi ki, balaca ölkənin böyük rəhbəri olmaq olar»


Ramiz Rövşən

**Çex Respublikasının ilk prezidenti, məşhur dissident, dramaturq Vaslav Havel vəfat edib. Şair Ramiz Rövşənlə Vaslav Havel barədə söhbəti təqdim edirik:**

- Düzü, mən Havelin bir yazıçı, dramaturq kimi oxucusu olmamışam. Mən daha çox çex poeziyası ilə maraqlanmışam, şairlərdən Volkeri, Nezvalı (İrji Volker, Vitizlav Nezval -Çex şairləri'-İ.R.) çox sevərdim. Amma mənim bildiyim Havel dissident idi. Mən onun o dövrki Çexoslavakiyada dissident kimi adını çoxdan eşitmişdim. 1968-ci ildən-yəni Sovet qoşunları Praqaya girəndən sonra mən onu tanımışam.

*- Hansı təəssürat yaradırdı sizdə?*

**«HAVEL TƏKCƏ İSTEDADLI DEYİL, HƏM DƏ ÇOX MƏNƏVİYYATLI, YÜKSƏK ƏXLAQLI BİR ADAM İDİ»**

- Çox ciddi mənəviyyat adamı təəssüratı yaradırdı. Yəni sənət adamı olmaq həm də birmənalı şəkildə mənəviyyat adamı olmaq demək deyil. İstedad mənəvi-əxlaqi keyfiyyət deyil axı. İstedad hardasa bir vergidir. Amma Havel təkcə istedadlı deyil, həm də çox mənəviyyatlı, yüksək əxlaqlı bir adam idi. Mən onu belə tanıyırdım. Çox maraqlıdır ki, Çexoslavakiyanın iki dövlətə - Çexiya və Slovakiyaya bölünməsi də Havelin dövrünə düşdü. Fərqli şəkildə olsa da, bu ölkə SSRİ-nin, Yuqoslaviyanın taleyini yaşadı. Havel bir insan, vətəndaş və prezident kimi bu bölünməyə qarşı olsa da, hər halda onu əngəlləyə bilmədi. Amma çex xalqı buna görə Haveldən küsmədi. Bundan sonra Haveli yenidən bir də prezident seçdilər. Məncə, burada siyasətçidən daha çox Havelin mənəvi-əxlaqi keyfiyyətinə üstünlük verildi.


Vaslav Havel

Mənə elə gəlir ki, çex xalqının Havelə münasibətində hind xalqının Mahatma Qandiyə *(Mohandas Karamçand Qandi - Hindistan siyasətçisi və düşüncə adamı, hind milli - azadlıq hərəkatının, 1919-1948-ci illər arasında ən önəmli lideri, hüquqşünas-İ.R.)* münasibətinə bənzər bir şey var. Yəni onu daha çox mənəviyyat adamı kimi sevirlər.

**«HAVEL İNSANLARA GÖSTƏRDİ Kİ, O YALNIZ HAKİMİYYƏT MARAQLARI İLƏ YAŞAMAYAN ADAMDIR»**

*- Vəfatı ilə bağlı fikirlərdə dünyanın bəzi hüfuzlu şəxsləri, dövlət rəhbərləri – Almaniya kansleri Angela Merkel, İsveçin Xarici İşlər naziri Carl Bildt Haveli «ən böyük avropalı» adlandırırlar. Buna münasibətiniz.*

- Bu sözlər Havelin şəxsiyyətinə və yaşadığı ömrə verilən qiymətdir. Çexiyadan qat-qat qüdrətli, dünya taleyində böyük rol oynayan dövlətlər, hətta Avropa üçün həlledici rol oynamayan bir ölkənin keçmiş rəhbəri haqda bunu deyirlərsə. Deməli, bura söhbət həmin ölkədən əvvəl şəxsiyyətin özündən, onun mənəvi-əxlaqi keyfiyyətlərindən gedir. Səməd Vurğun deyirdi ki, balaca ölkənin böyük şairi olmaqdansa, böyük ölkənin balaca şairi olmaq daha yaxşıdır. O bunu çox böyük əzablardan sonra demişdi, təbii ki. Çünki balaca ölkədən dünyaya çıxmaq çətindir. Amma Havel də göstərdi ki, balaca ölkənin böyük rəhbəri də olmaq olar. Yəni balaca ölkənin böyük rəhbəri Havel idi. Halbuki çox böyük ölkələrin çox balaca rəhbərləri var. Zaman da bunu zaman-zaman göstərib.

***İlqar Rəsul***

## AzadliqRadiosu.az saytında həmçinin oxuyun



**Mirzə İbrahimov adda yazıçı olubmu?**




**Məlihə Əzizpurun şeir kitabı Bakıda çap edilir**



**Seymur Baycanın "Quqark" romanının müzakirəsi başlandı**



CAVANŞİR YUSİFLİ: **Şeir yoxdur, şeir qurtarıb!**



**Qoqolun kəllə sümüyü qəbrindən oğurlanıbmı?**

# Namus üstündə öldürülən qadınların sayı artır


Pakistanda qanunsuz seksual əlaqədə olduğuna görə yüzlərlə qadını qətlə yetiriblər

*Bu ilin 10 ayında Pakistanda 675 qadın namus üstündə öldürülüb. Yerli hüquq müdafiəçiləri deyirlər ki, rəsmi rəqəmlər azalsa da, reallıqda bu cür cinayətlərin sayı ildən-ilə artır. Belə ki, 2010-cu ildə 791 qadın, 2009-da isə 600 qadın kişilər tərəfindən öldürülüb. Bu haqda Pakistanın İnsan Haqları üzrə Komissiyası məlumat açıqlayıb. AzadlıqRadiosunun məlumatına görə, bu yaxınlarda Pakistanda namus üstündə qətllərin qarşısının alınmasına yönələn yeni hüquqi qayda qəbul edilib. Bu sənəd həmçinin KİV-in də bu hadisələr haqqında daha açıq yazmağa icazə verir. Amma vətəndaş cəmiyyəti üzvləri hesab edir ki, hələ bu sahədə görülləsi iş çoxdur.*

Bununla belə, hüquq müdafiəçisi əmindir ki, hələ də ictimaiyyət belə cinayətlərin əksəriyyətindən xəbər tutmur: "Xüsusilə də ucqar bölgələrdə yerli adət-ənənələrə görə insanlar bu cür qətlləri dəstəkləyir, gizli saxlayırlar. Durumun bu səviyyəyə gəlib çıxmasında dini ekstremizm də müəyyən qədər rol oynayır".

Pakistanın İnsan Haqları üzrə Komissiyasının (HRCP) baş məsləhətçisi Zaman Xan qadınlara qarşı zorakılıq hallarının artdığını hesab edir: "Ən pisi odur ki, əvvəllər kənd yerləri, ucqar rayonlar üçün xarakterik olan bu cür olaylar indi şəhərə keçməyə başlayıb. Hamı ictimai həyatda qadınların rolunun artdığını etiraf edir, amma onlara qarşı zorakılıq azalmır".

Komissiyanın araşdırmaları göstərir ki, bu il ərzində qətlə yetirilən 675 qadının 71 nəfəri 18 yaşından kiçikdir. Ötən il öldürülən 791 qadının yarısından çoxu qanunsuz seksual əlaqədə ittiham olunublar. Daha 129 qız isə ailəsinin razılığı olmadan ərə getdiyinə görə qətlə yetirilib.

# İmamları təyyarədən düşürdüblər



Tenessi ştatından olan iki İslam dini lideri yerli aviaşirkətləri məhkəməyə verib. Onlar iddia edirlər ki, dini geyimdə olduqlarına görə "Delta Air Lines" və "Atlantic Southeast Airlines" (ASA) onların uçmasına icazə verməyib. Hadisə bu ilin mayında baş verib. İmam rütbəsini daşıyan Masadur Rahman və Mohammed Zaghloul Şimali Karolinada keçirilən dini seminara getmək üçün Memfis beynəlxalq aeroportuna gəliblər. Onlar qaydalara uyğun olaraq bir neçə dəfə yoxlamadan keçərək təyyarəyə buraxılıblar. Lakin təyyarə uçuşa hazırlaşarkən dini liderləri bir daha yoxlamadan keçiriblər. Uçuş anında bir daha şəxsiyyət vəsiqələrinə baxıblar. Təyyarə uçuş zolağına çıxandan sonra pilot geri qayıdıb. Təyyarə qapıya çatan kimi imamları aeroporta çağırıblar.

Burada "Delta" şirkətinin nəzarətçisi bir daha onların baqajını və özlərini yoxlayıb. İmamlardan üzr istəyərək onları təyyarəyə göndəriblər. Lakin pilot onları içəri buraxmayıb. "Delta" nəzarətçisi ona başa salmağa çalışıb ki, ağlabatan səbəb olmadan sərnişinləri reysə buraxmamaq olmaz. Amma danışıqlar nəticə verməyib. Pilot deyib ki, sərnişinlər bu insanların təyyarədə olmasına narahatlıq keçirir. Halbuki "Delta"nın meneceri sərnişinlər arasında kiminsə narahat olub-olmadığını soruşub. Lakin pilotdan başqa heç kim narazılığını bildirməyib. Nəhayət, təyyarə imamlar olmadan uçub.

**AzadliqRadiosu.az saytında daimi rubrika:**





Alwaleed bin Talal

# Səudiyyə şahzadəsi Twitterə maya qoyur

*Səudiyyə Ərəbistanı şahzadəsi Alwaleed bin Talal və onun investisiya şirkəti Kingdom Holding Co. qısa bloq saytı olan Twitterə 300 milyon dollar investisiya qoyurlar. Səudiyyə Ərəbistanının investisiya şirkəti Riyadhın məlumatına görə, danışıqlar bir neçə ay gedib və bin Talal Twitterdə "strateji pay" alıb. Media və texnologiyalara öz investisiyaları ilə tanınan bin Talal deyib ki, Twitterdə pay alınması sazişi "vədedicidir və bu, dünya əhəmiyyəti olan yüksək artım sürətli biznesdir".*

Twitter öz istifadəçilərinə 140 işarəyədək olan qısa mesajlar yazmağa imkan verir. "Ərəb baharı" etirazları zamanı nümayişçilər Twitter vasitəsilə əlaqə saxlayırdılar. Bin Talalın Kingdom Holding Co. Şirkəti Citigroup İnc.-də böyük paya malikdir. Onun həmçinin Apple İnc. və Rupert Murdocha məxsus News Corp.-da payları var. Bin Talal hazırda yeni ərəb xəbər kanalını təsis etmək prosesindədir. Bu kanal Qətərin Əl Jazeera və Səudiyyənin Al Arabiya kanallarına rəqib olacaq.



# Müsəlmanlar 2012-ci il üçün nə istəyir?

AzadliqRadiosu.az saytının "İslam və Demokratiya" bölümündə yeni forum mövzusu açılıb. Şaxta Babaya inansaydı, inanclı insanlar - müsəlmanlar və başqaları yeni ilə nə hədiyyə istəyərdi? 2011-ci ildə nəyə sevindiniz, nəyə üzüldünüz? 2012-ci ildən nə gözləyirsiz? Lütfən, fikirlərinizi bizimlə bölüşün. Səssiz qalmayın!

## Xeyriyyəçilikdə azərbaycanlılar dünyada 94-cü yerdədir

Britaniyada qərarlaşan xeyriyyə təşkilatı Charities Aid Foundation (CAF) hər il dünya üzrə xeyriyyə indeksini müəyyən edir. İndeks hər bir ölkədə əhalinin neçə faizinin xeyriyyəyə pul verməsi, xeyriyyəyə öz vaxtını sərf etməsi və qərib adama kömək etməsi əsasında hazırlanır. Bunları isə Gallup sorğu mərkəzinin müxtəlif ölkələrdə apardığı sorğular əsasında müəyyən edirlər. Builki siyahıda Azərbaycan 153 ölkə arasında 94-cü yerdədir. Azərbaycanda əhalinin 18 faizi xeyriyyəyə pul verir. 23 faizi xeyriyyəyə vaxtını sərf edir. 42 faizi isə qərib adama kömək edir. CAF-ın siyahısına əsasən, əhalisinin xeyriyyəçiliyinə görə dünyada birinci yerdə ABŞ-dır. ABŞ-da əhalinin 60 faizi xeyriyyəyə pul verir. 43 faizi xeyriyyəyə vaxtını sərf edir. 73 faizi qərib adama kömək əlini uzadır.

## Tayvan milyarderi pullarını ailəsinə vermir

Tayvanın ən varlı adamlarından olan Samuel Yin öləndən sonra var-dövlətinin 95 faizini xeyriyyəyə vəsiyyət edir. Bunu 60 yaşlı Yin Tayvanda çıxan Business Today həftəlik məcmuəsinə deyib. İş adamı Yinin var-dövləti 3,2 milyard dollar məbləğində qiymətləndirilir. Beləliklə, o, sərvətinin 3 milyarddan çoxunu xeyriyyəyə verəcək. Ailəsinə cəmi 160 milyon dollar qalacaq. Yin Business Today-ə deyib ki, "mən bu vəsiyyətimi ailəmə bildirdim, ailə üzvləri mənimlə razılaşdılar".

Yin Ruentex adlı konqlomeratın rəhbəridir. Bu biznes imperiyasına sığorta şirkətləri, hipermarketlər, əmlak alveri, toxuculuq fabrikləri və s. daxildir. Yinin vəsiyyətinin detalları hələ müəyyənləşməyib. O, məsələn, istəyir ki, pullarının bir hissəsi Nobel mükafatı kimi mükafatın təsis olunmasına və hər il verilməsinə yönəlsin.

## Bığlarına görə yurd-yuvasından olub



Pakistanlı Amir Muhammad Afridi'ni hamı bığlarına görə tanıyır. Onun bığları çənəsinə qədər sallanır. Sonra əyilərək yuxarı qalxır və ucları alnının ortasına qədər çatır. Onu bu cür bığ saxlamağa ilhamlandıran Pakistanda 60-cı illərin tanınmış siyasətçisi Malik Amir Mohammad Khan olub.

İndi belə bığ saxlamaq böyük cəsarət tələb edir. 2 il əvvəl silahlılar Amir Muhammed Afridiyə deyiblər ki, bığları İslama uyğun deyil. Ona bığlarını qırxmaq üçün hədə-qorxu gəliblər. Daha sonra 2008-ci ilin yayında İslam qruplaşmasının üzvləri onun evinə hücum edib. Amir'i özləri ilə aparıb 30 sm-lik bığlarını kəsiblər: «Başıma gələnlər bütün Xiber vilayətini məyus etmişdi. Camaat zəng edir, mənim tərəfimdə olduqlarını bildirirdilər. Mənimki heç kimə zərər verməyən bığ düşkünlüyüdür. Bığlarım unikal formada idi. Bığlarımla bütün nəslim fəxr edirdi».

Başına gələnlərdən sonra Amir səssiz-səmirsiz Pişəvər şəhərinə köçüb. Burada elektronika məhsulları satır. Sakit həyat sürür.

## AzadlıqRadiosunda verilişlər:

| | |
|---|---|
| 8:00 | Qafqaz Qovşağı /Azadlıq Bölgələrdə / Kontekst / Şəffaflıq / Overtime |
| 9:00 | İz / Şəffaflıq / İşdən sonra |
| 10:05 | Qərb musiqisi |
| 11:00 | Xəbərlər |
| 11:05 | Qərb musiqisi |
| 12:00 | Xəbərlər |
| 12:05 | Qafqaz Qovşağı / Qaynar Xətt / Can Bakı / Iz / Şəffaflıq / 14-24 / Şəffaflıq / Azadlıq Bölgələrdə |
| 13:00 | Xəbərlər |
| 13:05 | Qərb musiqisi |
| 14:00 | Xəbərlər |
| 14:05 | Overtime / Kontekst / Qaynar Xətt / Can Bakı / Pen club / Overtime / Iz / Şəffaflıq |
| 15:00 | Xəbərlər |
| 15:05 | Qərb musiqisi / Qaynar Xətt / Can Bakı |
| 15:30 | Amerikanın Səsi / İz |
| 16:00 | Xəbərlər |
| 16:05 | Qərb musiqisi / İşdən sonra |
| 17:00 | Xəbərlər |
| 17:05 | İşdən sonra |
| 18:00 | Xəbərlər |
| 18:05 | İşdən sonra / Pen Klub |
| 19:00 | Qərb musiqisi |
| 20:00 | Xəbərlər |
| 20:05 | Kontekst / Azadlıq Bölgələrdə / Şəffaflıq / Qaynar Xətt / İslam və Demokratiya / 14-24 / İz |
| 20:30 | Amerikanın Səsi / Qafqaz Qovşağı / 14-24 |
| 21:00 | Qərb musiqisi |
| 22:00 | Xəbərlər |
| 22:05 | Kontekst / 14-24 / Şəffaflıq |
| 23:00 | Xəbərlər |
| 23:05 | Overtime / İşdən sonra / AzadlıqFM / Overtime |
| 00:00 - 8:00 | Amerikanın Səsi / Qərb musiqisi |

**Qeyd:** Kəsr xətti ilə verilmiş – eyni saatlara düşən verilişlər həftənin günlərindən asılı olaraq növbə ilə təkrar gedir...

# Simsiz teleqraf

### Polis bulağı



Bu bulaq Masallıda yerləşir. **Yüklədi: Müstəcəb**

Sizdə də maraqlı video, foto və ya səs yazısı varsa bizə göndərin. Materialı kompyuterinizdən yükləmə səhifəsinə daxil olmaqla, yaxud MMS kimi mobil telefondan yollaya bilərsiniz. Ehtiyac varsa anonimliyi təmin edirik.

**Azərbaycandan:** (050) 213-56-30,

**Xaricdən:** (+420) 602 517 052

**Görüntüləri elektron poçtla da yollamaq olar:** efir@azadliqradiosu.az

# AzadliqRadiosu.az®

necə dinləməli...

24 saat

**Mobil telefonda canlı:** İndi 3G, GPRS və ya Wi Fi-la radiomuzu canlı dinləmək olur... Ətraflı: **AzadliqRadiosu.az**-da

# AzadlıqRadiosu Facebook-da




**facebook.com/azadliqradiosu**

**E-mail:** efir@AzadliqRadiosu.az

**Qaynar Xətt:** 436-77-41

Bizimlə əlaqə:

**SMS:** 050/ 744-10-17
**MMS:** 050/ 213-56-30



Azərbaycan Respublikası Ədliyyə Nazirliyində mətbu nəşrlərin reyestrinə daxil edilib, №3080

**"Fərqli düşüncə" jurnalının xüsusi buraxılışı**

Təsisçi və redaktor: Ş.A.Namazov

Bülleten redaksiyada səhifələnib, "Qanun" mətbəəsində çap olunub
Mətbəənin ünvanı: Bakı, Tblisi prospekti, 2-ci Alatava, 9

Redaksiyanın ünvanı: Bakı, F.Şahbazov küçəsi, 18
email: fdjurnal@gmail.com
Tiraj: 10000 nüsxə
Pulsuz